# Vətənə və xalqa sədaqətli xidmət

**Müasir Azərbaycanın inkişaf tarixi keşməkeşli olduğu qədər də zəngindir. Ölkəmizin müstəqillik tarixində baş verən proseslərə nəzər saldıqda bir daha aydın olur ki, Azərbaycanın tərəqqisinin, qüdrətlənməsinin və dövlətçiliyimizin əbədiliyinin yolu məhz hər sahədə Heydər Əliyev siyasi kursunun davam etdirilməsindən, ulu öndərin ideyalarının gerçəkləşdirilməsindən keçir. 2004-cü il may ayının 10-da yaranan Heydər Əliyev Fondu ulu öndərin ideyalarının davam etdirilməsi məqsədlərinə xidmət edir.**

Heydər Əliyev Fondunun fəaliyyətə başlamasından ötən on altı il böyük zaman kəsiyi sayılmır. Lakin bu dövrdə ortaya qoyduğu fəaliyyət nümunələri ilə fond Azərbaycanın həyatında necə böyük rol oynadığını, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sanbalına görə ölkəmizdə və regionda analoqu olmayan ictimai qurum olduğunu sübut edib. Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə bu müddətdə Heydər Əliyev Fondunun gördüyü işlər, həyata keçirdiyi layihələr olduqca geniş spektrli, maraqlı və rəngarəngdir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da artıq 16 ildir ki, öz fəaliyyətini məhz humanizm prinsipləri əsasında qurub. Fond Azərbaycanda və ölkə hüdudlarından kənarda mükəmməl layihələr yerinə yetirir, Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edir. Heydər Əliyev Fondunun icra etdiyi infrastruktur layihələri yüz minlərlə vətəndaşımızın sosial qayğılarının həlli deməkdir. Fond ötən müddət ərzində bura üz tutmuş heç bir insanın probleminə, dərdinə biganə qalmayıb. İnsanlarla ünsiyyətdə olmağı, onları dinləməyi və eşitməyi, köməyə ehtiyacı olana kömək etməyi, mənəvi dəstək verməyi Mehriban xanım Heydər Əliyev Fondunun hər bir əməkdaşı qarşısında birbaşa vəzifə kimi müəyyənləşdirib.

Azərbaycan və eləcə də dünya ictimaiyyəti Mehriban Əliyevanı ilk növbədə böyük xeyriyyəçi, qayğıkeş insan kimi tanıyır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial qayğıya ehtiyacı olan insanların, qaçqınların və məcburi köçkünlərin, talassemiya və diabet xəstəliklərindən əziyyət çəkən vətəndaşların dəstəklənməsinə yönəlmiş müxtəlif proqramlar məhz bu məqsədə xidmət edir. Bu xeyriyyəçilik təbdirləri nəticəsində yüzlərlə insan normal sağlamlıq müəssisələrinin yaradılmasında, uşaq evlərinin, internat məktəblərinin, uşaq bağçalarının yenidən qurulmasında, tarixi və dini abidələrin bərpasında Mehriban xanım Əliyevanın əzmkarlığını, təhsilimizin inkişafına, milli genofondumuzun qorunmasına xidmət edən əsl vətəndaşlıq missiyasını görürük.

Mehriban xanımın xalq musiqisinin, bənzərsiz muğamlarımızın inkişafındakı xidmətləri günümüzlə səsləşən addımlardır. O, ilk Azərbaycan qadını olaraq UNESCO kimi mötəbər beynəlxalq təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülüb.

Məhz Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tədbirlərlə Azərbaycan həqiqətləri uğurla dünyaya çatdırılır. Bütün bunlar erməni yalanlarının sistemli şəkildə ifşa olunmasına, Xocalı soyqırımının tanınmasına, işğal olunmuş torpaqlarımızın azad edilməsi istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun uğurla reallaşmasına böyük dəstəkdir.

2005-2017-ci illərdə Milli Məclisin deputatı kimi də Mehriban Əliyeva çox böyük işlər görüb. Lakin təkcə təmsil etdiyi dairədə deyil, bütün ölkə üzrə sosial-iqtisadi problemlərin yoluna qoyulmasında çox böyük addımlar atıb. Seçicilərlə daim təmasda olub və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həllinə yönəlib. Eyni zamanda, Mehriban Əliyevanın parlamentdə dostluq qrupunun sədri kimi fəaliyyəti nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

Bütün həyat və fəaliyyətini bu vətənin inkişafına, Azərbaycan insanının rifahına həsr etmiş böyük dövlət adamı, ümummilli liderin ideyaları işığında Heydər Əliyev Fondunun yaradılması təşəbbüsü də bu zəmində formalaşdı. Bu gün öz fəaliyyəti ilə təkcə Azərbaycan ictimaiyyəti arasında deyil, ölkəmizin sərhədlərindən kənarda da böyük rəğbət qazanan, köməyə, yardıma ehtiyac duyanların hər zaman yanında olan fond bəşər mədəniyyətinə, dünyada sülh və əmin-amanlığın hakim olmasına öz tarixi töhfələrini verir. Heydər Əliyev məfkurəsinin həmişəyaşar səciyyəsini özündə əks etdirməklə, ulu öndərin ali ideallarına layiq şəkildə fəaliyyət göstərməklə, qloballaşan dünyamızda azərbaycançılıq fəlsəfəsinə əsaslanmaqla milli-mənəvi dəyərlərimizin təbliğində, tarixi həqiqətlərimizin dünyaya çatdırılmasında, Azərbaycanın beynəlxalq imicinin daha da yüksəldilməsində əvəzsiz rol oynayır.

Məhz Mehriban xanım Əliyevanın əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə, ümumən Heydər Əliyev Fondunun işinə yaradıcı münasibəti ulu öndərin adını daşıyan bu təşkilatın öz fəaliyyətində kifayət qədər geniş spektri əhatə etməsini şərtləndirən ən mühüm amillərdən biridir. Hər bir insanda fərəh və qürur hissi doğuran bu çoxşaxəli fəaliyyət bir əsas məqsədə yönəlib: insanlara təmənnasız yaxşılıq...

O, öz yüksək statusundan, təşkilatçılıq bacarığından istifadə edərək ehtiyacı olanların problemlərinin həllinə yardım göstərir. Bir ictimai-iqtisadi formasiyadan digərinə keçidlə əlaqədar olaraq uzun illərdən bəri yığılıb qalmış, insanları narahat edən problemlərin dəqiq müəyyənləşdirilməsinə, onların həllindən ötrü səmərəli layihələrin formalaşdırılmasına, çox qısa müddətdə müsbət nəticələrin əldə olunmasına çalışır. Bütün dünyada multikultural islahatlar reallaşdırır. Dünyanın xoşməramlı səfiri statusunu almış heç bir şəxs indiyədək Mehriban Əliyeva qədər geniş, çoxsahəli, çoxəhatəli fəaliyyəti ilə dünyanın diqqətini çəkə bilməmişdir.

Mehriban xanım Əliyeva xalqımızın milli varlığının və özünəməxsusluğunun təcəssümü kimi əsrlər boyu formalaşmış zəngin mənəvi irsimizin, milli düşüncə və dəyərlər sistemimizin güclü hamisidir. O, bütün bunları yad təsirlərdən qoruyur, Azərbaycanın zəngin milli mədəniyyətinin bəşəri miqyasda təbliği kimi çətin və şərəfli vəzifənin öhdəsindən layiqincə gəlir.

Heydər Əliyev Fondunun rəhbəri, UNESCO-nun, İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xeyirxah, nəcib və savab əməlləri də müsəlman dünyasında yüksək dəyərləndirilmişdir. İslami inanclara və milli-mənəvi dəyərlərə yüksək həssaslıq nümayiş etdirən Azərbaycanın birinci xanımının fəaliyyəti İslam Konfransı Təşkilatına üzv dövlətlər tərəfindən daim təqdir edilir. 2006-cı ildə Mehriban xanım Əliyevanın İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) xoşməramlı səfiri adına layiq görülməsi bütövlükdə Azərbaycanın qazandığı böyük nailiyyət olmuşdur. Qürur doğuran haldır ki, İSESCO-nun xoşməramlı səfiri adı qadınlar arasında ilk dəfə məhz Mehriban xanım Əliyevaya verilmişdir.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi ölkədəki genişmiqyaslı islahatların tələbindən irəli gələn və cəmiyyətin mənafeyini özündə ehtiva edən tarixi qərar olmuşdur. Hazırda cəmiyyətdə mütləq çoxluğun birmənalı qənaəti budur ki, Heydər Əliyev Fondunun prezidenti olaraq vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış və yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva üç ildən artıq müddətdə üzərinə götürdüyü məsuliyyətli missiya ilə ölkə başçısının və xalqın etimadını tamamilə doğruldur. Ümumi qənaət belədir ki, qısa müddətdə Birinci vitse-prezidentlik institutu Azərbaycanda dövlət idarəçiliyinin funksionallığını daha da artırıb. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması onun Vətən və xalq naminə göstərdiyi ardıcıl fəaliyyətə verilən yüksək qiymət idi. Mehriban xanım yeni təyinatadək ona həvalə olunan bütün vəzifələrin öhdəsindən layiqincə gələrək özünün yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirmişdi. Bu ali vəzifəyə layiq olduğunu və gələcəkdə də bu məsuliyyətli vəzifəni yüksək bacarıqla icra edə biləcəyini bu günə qədər gördüyü işlərlə sübuta yetirib. Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyev də tam haqlı olaraq Təhlükəsizlik Şurasının iclasında birinci vitse-prezidenti təqdim edərkən Mehriban xanım Əliyevanı çox peşəkar, bilikli, təcrübəli, prinsipial və xeyirxah bir insan kimi xarakterizə etdi. Mehriban xanım Əliyeva həm ölkəmizin birinci xanımı, həm Heydər Əliyev Fondunun prezidenti və digər qurumların rəhbəri kimi uğurlu fəaliyyəti ilə xalqımızın böyük təqdirini və etimadını qazanıb. Mehriban xanım Əliyeva daim insanlarla ünsiyyətdə olub, onları düşündürən, narahat edən məsələlərin həlli ilə bağlı müxtəlif tədbirlərin görülməsi təşəbbüsü ilə çıxış edib. O, xalqımızın və dövlətimizin maraqlarının beynəlxalq miqyasda qorunması, mədəniyyətimizin, tarixi dəyərlərimizin təbliği istiqamətində mühüm işlər görüb. Həmçinin, onun rəhbərliyi ilə bir çox beynəlxalq tədbirlərin uğurla həyata keçirilməsi, "Eurovision" və İlk Avropa Oyunlarının paytaxtımızda ən yüksək standartlara uyğun baş tutması və Azərbaycanın dünyadakı nüfuzunun artmasına önəmli töhfələr verməsi bir daha Mehriban xanımın təşkilatçılıq bacarığının təsdiqi idi.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan Amnistiya aktları minlərlə insana, yüzlərlə ailəyə sevinc bəxş edib. O, ölkəmizdə səhiyyə, təhsil sahələrində mühüm layihələrin təşəbbüskarı kimi də uğurlu fəaliyyətini davam etdirib. Bütün bunlar isə bir daha Prezidentimiz İlham Əliyevin nə qədər düzgün bir qərar verdiyini sübuta yetirir. Prezident İlham Əliyev Mehriban xanımı Birinci vitse-prezident təyin edərkən demişdir: "Mehriban xanımın beynəlxalq aləmdə böyük nüfuzu var. Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilibdir. Eyni zamanda, on ildən artıqdır ki, Mehriban Əliyeva UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni zamanda, onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə ki, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri kimi Mehriban xanım bu işə də çox önəmli töhfə verir. 2015-ci ildə Birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir. Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehriban xanımın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir".

Mehriban xanım bu gün Birinci vitse-prezident və Heydər Əliyev Fondunun prezidenti kimi ulu öndərimizin vətənimiz və xalqımızın inkişafı naminə gördüyü işləri, işıqlı ideyalarını yüksək səviyyədə davam etdirir. Fondun qarşıya qoyduğu məqsəd demək olar ki, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş layihələr, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulmuşdu. Bu məqsəd Fondun fəaliyyət proqramında daha dəqiq ifadə olunduğu kimi, "milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən ibarətdir". Fondun fəaliyyəti çox unikaldır. Mehriban xanımın rəhbərliyi ilə bu çox kiçik, lakin bacarıqlı, yaradıcı insanlardan ibarət kollektiv bəzən bir neçə dövlət qurumunun işini yerinə yetirir. Heydər Əliyev Fondu nəinki irimiqyaslı, möhtəşəm layihələri həyata keçirib, hətta fəaliyyət göstərdiyi müddətdə ölkənin həm daxildə, həm də xaricdə vüsətli inkişafına, böyük nüfuz qazanmasına, yeni dünya cəmiyyətinin öndə olan ölkələrindən birinə çevrilməsinə öz fəaliyyətilə güclü dəstək olmuşdur. Bu, ən çox insan faktoruna ali münasibəti, ölkəmizin beynəlxalq arenada layiq olduğu mərtəbədə qərarlaşması ilə dəyərli olmuşdur. Elə ölkə başçısı, Prezident cənab İlham Əliyev Fondun fəaliyyətini yüksək qiymətləndirərək qeyd etmişdir ki, "Mehriban Əliyevanın rəhbərliyi ilə Fond nəinki Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir".

Heydər Əliyev Fondu məhz milli-bəşəri ideyaların tərənnümçüsü, daşıyıcısı olması ilə qüdrətlidir. Mehriban Əliyevanın Fondun rəhbəri kimi ən böyük məqsədi də Heydər Əliyev irsinin bir məktəb kimi yeni nəslə öyrədilməsi, təbliğ olunmasıdır. Mehriban Əliyeva onun ideallarına sadiq qalaraq, milli-mənəvi dəyərlərimizi özünün həyat tərzində, əxlaqında və düşüncəsində yaşadaraq ulu öndərin yolunu ləyaqətlə davam etdirir. Bu, xalqın gələcəyini möhkəm özüllər üstə qurmağa, onu inkişaf etdirməyə aparan ən işıqlı yoldur. Bu, ulu öndərin apardığı yaradıcılıq və quruculuq işlərinin davamı olaraq vətən və xalq naminə fəaliyyət göstərməyin ən doğru yoludur. Mehriban Əliyevanın genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünyada böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Bir daha xatırladaq ki, bütün bunlar güclü, aydın təfəkkürə, təxəyyülə malik olan incə ruhlu, zərif təbiətli bir qadının - ölkənin birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyevanın bilavasitə çalışmaları sayəsində həyata keçirilir.

Ümumiyyətlə, Azərbaycan cəmiyyətinin Birinci vitse-prezidentin təyinatı ilə bağlı nikbin ovqatı Mehriban xanım Əliyevanın dövlət idarəçiliyində xalqa və dövlətə daha çox xeyir vermək imkanlarının genişlənməsi ilə bağlıdır. Yeni vəzifəyə təyinatla bağlı ona ünvanlanan çoxsaylı təbriklərlə əlaqədar insanlara təşəkkürünü bildirmiş Mehriban xanım Əliyeva demişdir: "İndiyədək Heydər Əliyev Fondu bir çox əhəmiyyətli layihələr reallaşdırıb və mən bununla fəxr edirəm. Bu illər ərzində biz Azərbaycanın həyatında baş verən müsbət dəyişikliklərə öz töhfəmizi verməyi bacarmışıq. Amma yeni təyinat qarşıma artıq yeni hədəflər qoyur, yeni imkanlar açır. Mən gələcəyə nikbin baxıram. Çünki bu gün Azərbaycan qüdrətli, özünü təsdiq etmiş bir dövlətdir. Bizim inkişaf üçün böyük potensialımız, ən əsası isə insan kapitalımız vardır. Əziz dostlar, mən öz ölkəmə, sizə, bizim yaradıcılıq enerjimizə inanıram. Ölkəmizin gələcəyi, onun inkişafı və firavanlığı üçün bizim hər birimiz cavabdehik. Bu gün sizin səmimi diləkləriniz və dəstəyiniz mənim üçün çox vacibdir. Mən bu dəstəyi hər zaman, fəaliyyətimin bütün mərhələlərində hiss etmişəm. Hesab edirəm ki, əsl minnətdarlıq özünü yalnız sözdə deyil, konkret əməldə göstərməlidir. Sizi əmin edirəm ki, indiyədək önəm verdiyim prinsiplərə - öz Vətənimə və xalqıma xidmət, mərhəmət və ədalət, tolerantlıq və ümumbəşəri dəyərlərə bundan sonra da sadiq qalacağam".

Mehriban xanım Əliyevanın şəxsi nümunəsi respublikamızda ölkənin inkişafı və müsbət imicinin artması naminə ictimai fəallığın yüksəlməsini stimullaşdırıb. Mehriban xanım Əliyevanın doğma Azərbaycana böyük məhəbbətdən qaynaqlanan fəaliyyəti bəhs olunan konkret sahələrin inkişafında müstəsna rol oynayır ki, bu da son nəticədə ölkənin uğurlarında öz əksini tapır. Ən əsası, onun fəaliyyəti Vətənə, xalqa, dövlətə, milli və bəşəri dəyərlərə böyük sədaqət nümunəsi kimi qəbul olunur.

Bu gün xalqımız Mehriban xanım Əliyevanın fəaliyyətinə layiqli qiymət verərək onun bütün təşəbbüslərini dəstəkləyir və onun şəxsində Azərbaycan xanımına ən yüksək hörmət və ehtiramını ifadə edir. Xüsusilə Mehriban xanım Əliyevanın doğum günündə milyonlarla insanın ürəyində sevinc və minnətdarlıq hissi yaşanır. Bu ürəklərdə səslənən ən xoş arzular xalq üçün, Vətənimiz üçün yorulmadan, usanmadan çalışan fədakar insana - Mehriban xanım Əliyevaya ünvanlanır. Sonsuz xalq sevgisinə sahib olan Mehriban Əliyevaya milli maraqlarımızın müdafiəsinə, dövlətçiliyimizin möhkəmləndirilməsinə və xüsusən, Azərbaycan qadınının mənəvi yüksəlişinə xidmət edən yorulmaz fəaliyyətində davamlı uğurlar arzu edirik.

Mehriban xanım Əliyeva bu gün respublikamızın Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti kimi dövlətimizin inkişafına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində layiqli yerini tutmasına doğru istiqamətlənmiş amal və siyasətini inamla davam etdirir. Ən mühümü odur ki, Mehriban xanımın rəhbərliyi altında həyata keçirilən hər bir tədbir, proqram və layihə nəticə etibarilə Prezident cənab İlham Əliyevin yürütdüyü siyasi kursa layiqli töhfələr verir.

**Cavid OSMANOV,**
**Milli Məclisin deputatı.**